www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-20 (1824) 28 noyabr 2025-ci il



## “Əczaçılığın müasir problemləri” mövzusunda beynəlxalq konqres keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Azərbaycan əczaçılıq məktəbinin yetirmələri müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərir

səh. 2

### Professor İbrahim Yıldırımın xatirəsi yad olunub

səh. 3

### Tələbələr təhsil krediti ilə bağlı məlumatlandırılıb

səh. 3

### Şəkərli diabet xəstələri ödənişsiz müayinə edilib

səh. 6



### Rektor tanınmış xarici əczaçılarla görüşüb

Qonaqlar əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər irəli sürüblər

səh. 2

### Uşaq hüquqlarının müdafiəsinə xüsusi həssaslıq göstərilir

*İctimai fənlər kafedrasında Ümumdünya Uşaq Hüquqları Gününə həsr olunmuş tədbir keçirilib*

səh. 4

### Sirroz – qaraciyərin qara bəxti

*Professor Sədrəddin Atakişizadə ağrısız baş verən ağır xəstəlikdən danışır*

səh. 7



### Qərib eldə doğma universitet

Azərbaycan Tibb Universiteti öz əcnəbi tələbələri üçün ən yaxşı şəraiti təqdim etməyə çalışır

səh. 3

# “Əczaçılığın müasir problemləri” mövzusunda beynəlxalq konqres keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Azərbaycan əczaçılıq məktəbinin yetirmələri müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərir

**Noyabrın 20-də Azərbaycan Tibb Universiteti və Azərbaycan Əczaçılar Assosiasiyasının birgə təşkilatçılığı, Əczaçılıq fakültəsinin magistri Lamiyə Yusifova və doktorantı Elvin Nağıyevin aparıcılığı ilə “Əczaçılığın müasir problemləri” mövzusunda VI Beynəlxalq Konqres öz işinə başlayıb.**






ATU-nun yaradılmasının 95 və Azərbaycanda ali əczaçılıq təhsilinin 85 illik yubileylərinə həsr olunan konqresin açılışında əvvəlcə Dövlət Himnimiz səsləndirilib, Vətənimizin bütövlüyü naminə canlarını fəda etmiş qəhrəman şəhidlərimizin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bundan sonra rektor, professor Gəray Gəraybəyli açılış nitqi ilə çıxış edərək qonaqları və konqres iştirakçılarını salamlayıb. Rektor əczaçılıq təhsilinin ölkəmizdə tarixi inkişaf yolundan, bu sahənin formalaşması və möhkəmlənməsində görkəmli şəxsiyyətlərin xidmətlərindən söz açıb. O qeyd edib ki, XX əsrdə Azərbaycan əczaçılıq tarixinin ən mühüm hadisələrindən biri 1938-ci ildə ali əczaçılıq təhsilinin yaradılması və Azərbaycan Dövlət Əczaçılıq İnstitutunun təşkilidir. İnstitutun ilk rektorunun tanınmış dövlət xadimi, professor Əziz Əliyev olduğunu xatırladan rektor bildirib ki, ötən 85 il ərzində Azərbaycan əczaçılıq məktəbi böyük inkişaf yolu keçib və bu günə qədər fakültəni 3500-dən çox yüksək ixtisaslı mütəxəssis bitirib. Bu məzunlar ölkə ərazisində dərman təchizatı, farmasevtik xidmət və müalicə-profilaktika sahələrində mühüm rol oynayırlar. Eyni zamanda, ATU-nun Əczaçılıq fakültəsi yalnız respublikamız üçün deyil, həm də xarici ölkələr üçün peşəkar kadrlar hazırlayıb: Türkmənistan, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya Federasiyası, İran, Türkiyə, İraq, Sudan, İsrail, Polşa və digər ölkələrdə Azərbaycan əczaçılıq məktəbinin yetirmələri uğurla fəaliyyət göstərir.

Professor G.Gəraybəyli çıxışında qeyd edib ki, fakültənin məzunları arasında əczaçılıq, kimya və biologiya sahələrində çoxsaylı fəlsəfə və elmlər doktorları var. Bu mütəxəssislər təkcə Azərbaycanda deyil, ABŞ, Fransa, Ukrayna, Rusiya və digər ölkələrdə də elmi və praktik fəaliyyətlə məşğuldurlar. Rektor vurğulayıb ki, əczaçılıq sahəsinin inkişafına ölkə rəhbərliyinin dəstəyi hər zaman hiss olunur: “Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyə və əczaçılıq sahəsində yeni inkişaf mərhələsi başlayıb. Bu siyasət hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

ATU-da aparılan islahatlar çərçivəsində son illərdə əczaçılıq ixtisası üzrə yeni təhsil standartları hazırlanaraq təsdiq edilib, tədris prosesi beynəlxalq tələblərə uyğunlaşdırılıb. Əczaçılıq kimyası kafedrasında Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə müasir farmasevtik laboratoriya qurulub və uğurla fəaliyyət göstərir. Bunlar gələcəkdə xarici universitetlərlə ikili diplom proqramlarının həyata keçirilməsi üçün mühüm baza yaradır”.




Azərbaycan Əczaçılar Assosiasiyasının hər zaman farmasevtik sahədə elmi müzakirələrin aparılması, müasir problemlərin həlli və sahənin inkişafına töhfə verdiyini vurğulayan rektor, sayca altıncı olan beynəlxalq konqresi də məhz bu ənənənin davamı kimi səciyyələndirib.

Rektor diqqətə çatdırıb ki, konqres çərçivəsində əczaçılıq elminin müxtəlif sahələri üzrə əldə olunan nailiyyətlər, yeni dərman vasitələrinin hazırlanması, elmi-tədqiqat işlərinin nəticələri, süni intellektin dərman kəşfində tətbiqi, kliniki və ailə əczaçılığı, sığorta əczaçılığı və digər aktual mövzular müzakirə olunacaq. Çıxışının sonunda konqresin işinə uğurlar arzulayan rektor, tədbirin əczaçılıq təhsilinin inkişafına, farmasevt peşəsinin nüfuzunun yüksəldilməsinə, bu sahənin daha da irəliləməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Konqres iştirakçılarına səhiyyə naziri Teymur Musayevin təbrikini çatdıran Səhiyyə Nazirliyinin Farmakoloji və Farmakopeya Ekspert Şurasının sədri Elsevər Ağayev bildirib ki, ölkənin əczaçılıq sahəsində problemlər çoxdur və onların müzakirəsinə ehtiyac var. Konfransda 10-dan çox ölkədən 30-a yaxın qonağın iştirak etdiyini vurğulayan nazirlik rəsmisi yeni dərman preparatlarının hazırlanması, əczaçılığın iqtisadiyyatı, saxta dərmanlara qarşı mübarizə kimi mövzuların konfransın əsas müzakirə xəttini təşkil edəcəyini, həmçinin süni intellektin əczaçılığa tətbiqi və dərmanların standartlaşdırılması sahəsində yeniliklərin diqqət mərkəzində olacağını deyib.

ATU-nun Əczaçılıq kimyası kafedrasının müdiri, Azərbaycan Əczaçılar Assosiasiyasının sədri, professor Tahir Süleymanov Azərbaycan əczaçılığının zəngin təbii sərvətlərə və köklü elmi ənənələrə əsaslanaraq inkişaf etdiyini diqqətə çatdırıb. O, 1951-ci ildə yaradılmış “Azərbaycan Əczaçılarının Elmi-Praktik Birliyi”nin müstəqillikdən sonra assosiasiyaya çevrildiyini, ölkədə əczaçılıq işlərinin kadr hazırlığı, elmi-tədqiqat, praktik əczaçılıq və ictimai fəaliyyət istiqamətində aparıldığını vurğulayıb.

Əczaçılıq təhsilinin inkişafı üçün yeni konsepsiyanın hazırlandığını, elmi-təcrübə bazalarının təkmilləşdirilməsi, onlayn tədris proqramlarının tətbiqi və normativ mexanizmlərin yenilənməsi kimi addımların atıldığını söyləyən T.Süleymanov qeyd edib ki, müxtəlif institutlar tərəfindən aparılan araşdırmaların koordinasiya olunması, vahid elmi mövzular üzrə birgə fəaliyyətin qurulması tədqiqatların keyfiyyətini artıracaq və beynəlxalq qrant layihələrində iştirak imkanlarını genişləndirəcək.

O, son illər yerli dərman istehsalı sahəsində atılan addımları, texnoparklarda yeni farmasevtik zavodların qurulmasını və dərman təhlükəsizliyinin strateji əhəmiyyətli sahə kimi inkişaf etdirilməsini yüksək qiymətləndirib, həmçinin “Azərmed” və digər aptek şəbəkələrinin respublika üzrə dərman təminatındakı rolunu vurğulayıb.

Milli Məclisin deputatı İlham Məmmədov da çıxış edərək bu konqresin əczaçılıq sahəsində gələcək hüquqi tənzimləmələr üçün mühüm platforma olduğunu vurğulayıb. O, 2026-cı il dövlət büdcəsindən səhiyyəyə 3,7 milyard manat vəsait ayrılmasını bu sahənin inkişafına göstərilən dövlət qayğısı kimi dəyərləndirib. İ.Məmmədov yerli dərman istehsalının genişləndirilməsi, yeni texnologiyaların tətbiqi və yerli sənayenin gücləndirilməsinin vacibliyini vurğulayaraq, bu prosesdə dövlət dəstəyinin davam etdiyini və hüquqi bazanın təkmilləşdirilməsi üçün Milli Məclisin hər zaman sektora dəstək göstərəcəyini deyib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova çıxışında qeyd edib ki, müasir çağırışlar klassik metodların artıq yetərli olmadığını göstərir və süni intellekt, bioinformatika, nanobiotexnologiya, molekulyar farmakologiya kimi yeni texnoloji sahələr əczaçılıq elminin inkişafında əsas istiqamətə çevrilir. Onun sözlərinə görə, tədqiqatların keyfiyyətinin yüksəlməsi, beynəlxalq standartlara uyğunlaşma və innovativ yanaşmaların tətbiqi sahənin gələcəyini müəyyən edən əsas amillərdir.

İradə Hüseynova ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və dövlət qurumları arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə artıq birgə layihələrin və protokolların müsbət nəticələr verdiyini bildirib. O, Azərbaycanın zəngin bitki müxtəlifliyinin yeni dərman preparatlarının yaradılması üçün geniş imkanlar açdığını qeyd edib. Akademik pandemiyanın bütün dünyaya elmin və müasir texnologiyaların vacibliyini göstərdiyini, günümüzdə dərman təhlükəsizliyinin strateji məsələlərdən birinə çevrildiyini deyib. Onun fikrincə, əczaçılıq elminin inkişafında fundamental və tətbiqi tədqiqatların genişləndirilməsi, kliniki tədqiqatların beynəlxalq standartlara yaxınlaşdırılması və innovativ yanaşmaların tətbiqi prioritet olmalıdır.

Çıxışların ardınca əczaçılıq sahəsində ölkəmizin əldə etdiyi nailiyyətləri və son illərdə aparılan genişmiqyaslı işləri özündə əks etdirən sənədli film izlənilib.

Daha sonra Türkiyə Cümhuriyyətindən professor İlkay Erdoğan Orhan, Şimali Kiprdən professor Kemal Hüsnü Can Başer, Böyük Britaniyadan professor Bencamin Nyuland-Pepl, Özbəkistandan akademik Saqdullayev Şamansur Şahsaidoviç, Portuqaliyadan professor Anake Kijjoa, Fransadan professor Gaetan Herbette və başqaları təbrik nitqi ilə çıxış edərək Azərbaycanda olmaqdan, belə mötəbər tədbirə qatılmaqdan məmnunluqlarını dilə gətiriblər.

Respublikamızın əməkdar artisti Ramil Qasımov isə tədbir iştirakçılarına təbrikini ecazkar Azərbaycan musiqisi ilə çatdırıb.

Açılış mərasimindən sonra və növbəti gün konqres öz işini plenar iclaslarla davam etdirib.

**Arif MƏMMƏDLİ**



# Rektor tanınmış xarici əczaçılarla görüşüb

## Qonaqlar əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər irəli sürüblər

**Azərbaycan Tibb Universiteti və Azərbaycan Əczaçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən “Əczaçılığın müasir problemləri” mövzusunda VI Beynəlxalq Konqres dünyanın müxtəlif ölkələrindən nüfuzlu alimləri və mütəxəssisləri bir araya gətirib.**

ATU-nun 95, ölkəmizdə ali əczaçılıq təhsilinin isə 85 illik yubileylərinə həsr olunmuş konqresin ən önəmli məqamlarından biri Bakıda səfərdə olan tanınmış alimlərin rektor, professor Gəray Gəraybəyli ilə görüşü olub. Görüşdə Yakın Doğu Universitetinin Sağlıq Elmləri İnstitutunun rəhbəri, Farmakoqnoziya kafedrasının professoru Hüsnü Can Başer, Lokman Hekim Universitetinin Əczaçılıq fakültəsinin dekanı, Farmakoqnoziya kafedrasının professoru İlkay Erdoğan Orhan, Özbəkistan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik S.Y.Yunusov adına Bitki Maddələrinin Kimyası İnstitutunun direktoru, Ali Məclisin Senatının üzvü, Özbəkistan Respublikasının birinci dərəcəli Dövlət Mükafatının laureatı, akademik Saqdullayev Şahmansur Şahsaidoviç iştirak ediblər.

Görüş zamanı tərəflər əczaçılıq elmi və təhsili sahəsində əməkdaşlığın genişləndirilməsi, klinik tədqiqatların inkişafı, tədris proqramlarının təkmilləşdirilməsi və uzunmüddətli tərəfdaşlıq imkanları barədə ətraflı fikir mübadiləsi aparıblar. Qonaqlar ATU ilə birgə elmi layihələrin icrası, tələbə və mütəxəssis mübadiləsinin artırılması, innovativ dərman tədqiqatlarının inkişaf etdirilməsi istiqamətində əməkdaşlığın gücləndirilməsinə dair konkret təkliflər səsləndiriblər.

Rektor, professor Gəray Gəraybəyli universitetin elmi və tədris fəaliyyətinin gücləndirilməsi, beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və tələbə-mütəxəssis mübadiləsinin inkişafı istiqamətində aparılan işlər barədə məlumat verib.

Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov konqresin məqsədləri və əhatə dairəsi haqqında danışaraq bildirib ki, tədbir müddətində qlobal əczaçılıq tendensiyaları, innovativ tədqiqatlar, elmi yeniliklər və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunub, müxtəlif elmi sessiyalar və panel müzakirələri təşkil edilib.

Görüşdə Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Elmi tədqiqatların idarə olunması departamentinin rəhbəri, professor Eldar Qarayev də iştirak ediblər.

# Qərib eldə doğma universitet

## Azərbaycan Tibb Universiteti öz əcnəbi tələbələri üçün ən yaxşı şəraiti təqdim etməyə çalışır

**Universitetimizin Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığı əcnəbi dinləyicilər, tələbələr, rezidentlər və doktorantlarla işin təşkili üçün yaradılıb. Dekanlığın fəaliyyəti və yeniliklərlə bağlı ətraflı məlumat əldə etmək üçün dekan Natiq Bayramovla söhbətləşdik.**

Onun bildirdiyinə görə, dekanlığın fəaliyyət dairəsi həm bakalavriat, həm də baza ali tibb təhsili, magistratura, rezidentura və doktorantura pillələrində təhsil alan əcnəbiləri əhatə edir: “Universitetimizə daxil olmaq istəyən bütün əcnəbi tələbələr portal.edu.az saytı üzərindən müraciət edirlər. Bu, Elm və Təhsil Nazirliyinin vahid platformasıdır. Müraciət edənlər rektorun əmri ilə təşkil olunmuş Xüsusi Qəbul Komissiyası tərəfindən onlayn qaydada müsabiqədən keçir. Müsabiqədən keçənlər müvafiq fakültələrə Azərbaycan, ingilis və rus dilləri üzrə qəbul olunurlar. Bu prosedurdan sonra abituriyent universitetə gəlir, müqavilə bağlayır və hazırlıq kursunda dərslərə başlayır”.



Dekan 1-ci kursa daxil olmaq istəyən əcnəbilərin iyuldan sentyabrın ilk həftəsinədək müraciət etmək imkanlarının olduğunu diqqətimizə çatdırdı. Təşkil olunmuş müsabiqələrdən keçənlər birbaşa 1-ci kursa qəbul edilir: “Hazırlıq şöbəsində isə dərslər yanvar ayından başlayır, iyulun 1-ci həftəsinədək davam edir. Bundan sonra universitetdaxili test vasitəsilə imtahan keçirilir. İmtahandan müvəffəqiyyət qazananlar 1-ci kursa qəbul olunurlar.

Fəaliyyətimizin digər istiqamətlərindən biri universitetə daxil olan tələbələri Xarici İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti ilə əlaqələndirməkdir. Nazirlər Kabinetinin 125 saylı əmrinə əsasən, ölkəmizdə təhsil alan əcnəbi tələbələr mütləq Dövlət Miqrasiya Xidmətində qeydiyyatdan keçməlidir. Müvafiq qanunvericiliyə görə, hazırlıqda və 1-ci kursda təhsil alan tələbələrə 90 gün vaxt verilir. Bu müddət ərzində qeydiyyatdan keçməli, müvəqqəti yaşama izni almalıdırlar. Tələbələrin problemlərlə üzləşməməsi üçün onlara DMX ilə necə əlaqə saxlamağı izah edir, yardımçı oluruq.

Tələbələr öz seçimlərinə uyğun olaraq, universitetin yataqxanasında və ya şəxsi evlərdə qala bilərlər. Onlar ASAN xidmət mərkəzlərindən müvəqqəti yaşama izni aldıqdan sonra biz onlara kodlar verir, müvafiq fakültələrdə yerləşdiririk. Hansı ölkədən olduqlarını nəzərə alaraq, əcnəbi tələbələri bir qrupda cəmləməyə çalışırıq. Eyni zamanda Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovla əlaqəli şəkildə işləyir, eyni ölkədən olan tələbələrin eyni otaqlarda yerləşdirilməsinə üstünlük veririk. Bu halda həm nəzarət güclü olur, həm də tələbələr universitetdəki şəraitdən daha yaxşı yararlana bilirlər”.

Natiq müəllim sualımıza cavab olaraq qeyd etdi ki, əcnəbi tələbələr həm öz şəxsi, həm də müəyyən qrantlar və təqaüdlər hesabına təhsil alırlar: “Hazırda universitetimizdə “Heydər Əliyev adına təqaüd”lə 10 nəfər təhsil alır. İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin vətəndaşlarından da təşkilatın qrantı hesabına oxuyanlar var.

Tələbələrimizi maarifləndirmək məqsədi ilə mütəmadi olaraq tədbir və görüşlər keçirir, onları universitetin daxili nizam-intizam qaydaları ilə tanış edirik. Qaydaları pozan tələbələrə ilk öncə töhmət verilir, ciddi pozuntular olarsa, universitetdən xaric edilir. Hazırda Tibb Universitetində 2318 nəfər əcnəbi tələbə təhsil alır”.

N.Bayramov əcnəbi tələbələrin Tələbə Elmi Cəmiyyətinin xətti ilə əldə etdikləri uğurlara da toxundu. Bildirdi ki, üç il öncəyədək onlar demək olar ki, fakültə TEC-lərə cəlb olunmurdular: “İndi isə çoxlu sayda əcnəbi tələbə TEC-in sıralarındadır və elmi araşdırmaları ilə yerlər tutur, uğur qazanırlar. Statistikaya nəzər salanda, TEC-də iştirak edən əcnəbilərin sayı azərbaycanlı tələbələrin 40 faizini təşkil edir. Bu isə ciddi rəqəmdir və sevindirici haldır.

Tələbələrimiz idman və musiqi sahələrində də özlərini sınayır, universitetin ictimai həyatında aktiv iştirak edirlər. Məsələn, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə “Şuşa reallığı” adlı tədbir keçirildi. Orada universitetimizdən 10 tələbə iştirak etdi və yerlər qazandı. Onlar öz ölkələrinə Qarabağla, Şuşa ilə bağlı böyük təəssüratlarla döndülər. Əcnəbi tələbələrimizin bu uğurları, eləcə də onların şəxsi maraqları, bacarıqları, tələbə həyatı ilə bağlı mütəmadi olaraq universitetimizin “Təbib” qəzetində, sosial media hesablarımızda materiallar yayımlanır”.

Söhbətimizin sonunda N.Bayramov tələbələrin sağlamlığının daim diqqət mərkəzində olduğunu vurğuladı. Universitetin Elmi Şurasının qərarı ilə onlar artıq 3-cü ildir ki, “PAŞA sığorta” ilə bağlanmış müqavilə əsasında hər ilin sentyabrında məcburi sığorta olunur. Sığorta paketinə 40-dan artıq klinika daxildir. Paketdə universitetimizin Tədris Cərrahiyyə, Tədris Terapevtik və Tədris Stomatoloji klinikaları da var.

**Qabil ABDULLAYEV**




# Görkəmli professorun xatirəsi yad olunub

**Noyabrın 20-də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təşkilatçılığı ilə “Yeni Klinika”da dünya şöhrətli cərrah, dəyərli alim, milli məfkurəli ziyalı, əslən Qazax rayonundan olan İstanbul Universitetinin sabiq professoru İbrahim Yıldırımın xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.**

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov, AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov, İstanbuldakı Fulya Kardiologiya və Ürək-Damar Cərrahiyyə Akademiyasının baş həkimi, professor Bingür Sönmez, Azərbaycan Tibb Universitetinin Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev, professor Vaqif Qələndər, Bakı Avrasiya Universitetinin professoru Ədalət Tahirzadə, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan, Kastamonu Universitetinin sabiq rektoru Seyit Aydın, Qarabağ Universitetinin Klinikasının baş direktoru Samir Babayev, Mərkəzi Klinikanın baş həkimi, professor Kamran Musayev və başqaları professor İbrahim Yıldırımın tibb aləminə verdiyi töhfələrdən bəhs ediblər.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Mustafa Vəkiloğlunun nəslindən olan İ.Yıldırım 1936-cı il noyabrın 20-də Türkiyədə – Amasya vilayətinin Merzifon rayonunda dünyaya gəlib. İstanbul Universitetinin Tibb fakültəsini bitirdikdən sonra ABŞ, Avropa və Asiyanın müxtəlif ölkələrində plastik cərrahiyyə üzrə ixtisasartırma kurslarında təcrübə keçib, konfrans və seminarlarda iştirak edib.

Prezident İlham Əliyev 2019-cu ildə İbrahim Yıldırımı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medalı ilə təltif edib.



# Tələbələr təhsil krediti ilə bağlı məlumatlandırılıb

Universitetimizdə Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri ilə tələbələrin görüşü keçirilib. Tədris işləri üzrə prorektor, professor Anar Ağayev görüşün əsas məqsədinin Fondla ATU arasında daha sıx əməkdaşlıq imkanlarını nəzərdən keçirmək, tələbələri məlumatlandırmaq olduğunu bildirib.

TTKF İdarə Heyətinin sədr müavini Rüfət Tağızadə isə çıxışında Fondun əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 17 iyun tarixli fərmanı ilə yaradıldığını qeyd edib. O, Fondun fəaliyyət prinsipləri, təhsil kreditlərinin verilməsi qaydaları və tələbələr üçün mövcud imkanlar barədə ətraflı məlumat verib.

Daha sonra Müəssisələrlə iş şöbəsinin baş mütəxəssisi Günay Xəlilova Fondun tələbələr üçün təşkil etdiyi proqramlar, müraciət şərtləri və təhsil kreditlərinin verilməsi prosesi haqqında ətraflı məlumat təqdim edib, iştirakçıların suallarını cavablandırıb.

# Qrup nümayəndələri ilə görüş keçirilib



**İctimai səhiyyə fakültəsinin ixtisaslar üzrə qrup nümayəndələri ilə görüş keçirilib. Tədbirin əsas mövzusu kollokviumların və imtahanların keçirilməsi olub.**

Görüşdə Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov Zəfər Günü və Bayraq Günü münasibətilə iştirakçıları təbrik edib. O, gələcək kollokviumların cədvəli və keçirilmə qaydaları barədə ətraflı məlumat verib, tələbələrin nizam-intizamlı olmalarının vacibliyini vurğulayıb. K.Yaqubov, həmçinin ATU-da tələbələrin əksəriyyətinin dövlət sifarişi əsasında təhsil aldığını qeyd edərək, bu halın dövlətin tibb təhsilinə göstərdiyi diqqətin göstəricisi olduğunu bildirib. O, tibb işçilərinin cəmiyyətə verdiyi töhfələrdən danışıb və tələbələrin uğurlu karyera qurmaq üçün tədris prosesinə ciddi yanaşmalarının vacibliyini vurğulayıb.

Tədbirdə fakültə dekanının müavini Nailə Məmmədova, akademik məsləhətçilər Aysel Osmanova və Arzu Məmmədli, tələbə dekanı Aytac Məmmədova da iştirak edirdilər.

# Tələbə Günü münasibətilə fəal tələbələr təltif edilib



**Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) 17 Noyabr – Tələbə Günü münasibətilə universitetin sosial-ictimai həyatında xüsusi fəallıq göstərən tələbələrin iştirakı ilə tədbir təşkil edib.**

Tələbələri bayram münasibətilə təbrik edən THİK-in sədri Qoşqar İsmayılov bildirib ki, onların universitetin elmi, sosial və ictimai mühitinin inkişafında göstərdiyi fəallıq ATU-nun ümumi uğurlarında mühüm rol oynayır. Q.İsmayılov çıxışı zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəylinin tədbir iştirakçılarına salamlarını çatdırıb və rektorun tələbələrin bilik, təşəbbüskarlıq və sosial fəallığını yüksək qiymətləndirdiyini söyləyib.

THİK sədri, həmçinin vurğulayıb ki, tələbələrin universitet həyatında göstərdiyi aktivlik, təşkilati işlərdə fəal iştirakı və müxtəlif sosial layihələrdə nümayiş etdirdiyi məsuliyyətli davranış onların gələcək peşəkar inkişafına mühüm töhfə verir. O, tələbələrə təhsildə və ictimai fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda universitetin sosial-ictimai həyatında fərqlənən 30 tələbə Təşəkkürnamə ilə təltif olunub.

# Qazaxıstanlı gigiyena mütəxəssisləri ATU-da olub

**Qazaxıstan Respublikası "Əmək Gigiyenası və Peşə Xəstəlikləri Milli Mərkəzi" Qeyri-kommersiya Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Tibb Universitetində işgüzar səfərdə olub.**



12-13 noyabr tarixlərində Mərkəzin İdarə Heyətinin direktoru, t.e.d., professor Otarov Yertay Jalqaspayeviç və direktor müavini, t.ü.f.d. Tilemisov Maqjan Kakarmanoviç universitetimizdə bir sıra görüşlər keçiriblər.

Qonaqlar Universitetlə Mərkəz arasında memorandum imzalanmasına dair məsləhətləşmələr aparmaq üçün Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev ilə görüşüblər. Elmi əməkdaşlıq istiqamətində birgə layihələrin həyata keçirilməsi məsələləri isə Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan ilə müzakirə olunub.

Səfər çərçivəsində nümayəndə heyəti Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasını ziyarət edərək, aparılan tədqiqat istiqamətləri barədə məlumat alıb. Eləcə də qarşılıqlı əlaqələrin genişləndirilməsi, birgə elmi tədqiqatların həyata keçirilməsi və gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Görüşdə kafedranın müdiri, dosent Şəhla Balayeva, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru Musa Ələkbərov və Qidalanma və tibbi ekologiya kafedrasının məsləhətçi professoru Mirzə Kazımov iştirak ediblər.

Səfər iki tərəf arasında əməkdaşlığın daha da gücləndirilməsinə, elmi-tədqiqat potensialının birləşdirilməsinə və gələcəkdə birgə layihələrin həyata keçirilməsinə mühüm təkan verəcək.

# Kafedra müdiri Avstriyada beynəlxalq elmi tədbirə qatılıb

**Avstriyanın Zalsburq şəhərində yerləşən EB House Austria mərkəzində nadir genetik dəri xəstəliklərinə həsr olunmuş beynəlxalq elmi tədbir baş tutub. Tədbir Salzburger Landeskliniken (SALK) və Paracelsus Tibb Universitetinin (PMU) Dermatologiya və Allerqologiya Klinikası tərəfindən təşkil edilib.**



Azərbaycanı tədbirdə universitetimizin Dermatovenerologiya kafedrasının müdiri, professor Fərid Mahmudov təmsil edib. F.Mahmudov, eyni zamanda, Azərbaycan Respublikasında bullyoz epidermoliz və ixtioz üzrə Dövlət Komissiyasının sədri qismində bu sahədə uzunmüddətli elmi və kliniki fəaliyyət aparır.

Tədbir çərçivəsində iştirakçılar EB House Austria klinikasının fəaliyyəti, xəstələrin müalicə və reabilitasiya üsulları, eləcə də bullyoz epidermoliz kimi ağır irsi xəstəliklərin müalicə protokolları və yeni tədqiqat istiqamətləri ilə tanış olublar. Müzakirələr zamanı Qazaxıstan, Özbəkistan, Polşa və Almaniyadan gəlmiş dermatoloqlar və tədqiqatçılar öz təcrübələrini bölüşüb, gələcək elmi əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Məlumat üçün bildirək ki, bullyoz epidermoliz dərinin və selikli qişaların kövrəkliyinə səbəb olan nadir və ağır irsi xəstəlikdir. Onun effektiv müalicəsi və idarə olunması müasir dermatologiyanın qarşısında duran mühüm elmi və sosial çağırışlardan biridir.

**Noyabrın 25-də ATU-nun İctimai fənlər kafedrasında Ümumdünya Uşaq Hüquqları Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə kafedranın müdiri, professor Qoşqar Əliyev giriş nitqi ilə çıxış edib.**

Professor bildirib ki, uşaq hüquqlarının müdafiəsi həm dövlətin, həm də cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. O vurğulayıb ki, 1989-cu ildə qəbul olunmuş BMT Uşaq Hüquqları Konvensiyası bu sahədə əsas beynəlxalq sənəddir və konvensiyanın ratifikasiyasından sonra ölkələrdə uşaqların müdafiəsi yönəlmiş tədbirlər genişlənib.

# Uşaq hüquqlarının müdafiəsinə xüsusi həssaslıq göstərilir





Q.Əliyev qeyd edib ki, uşaqlara qayğı yalnız hüquqi müdafiə ilə məhdudlaşmamalı, onların həssas fərd kimi qorunması, sağlam inkişafı və təhlükəsiz mühitdə böyüməsi təmin olunmalıdır. Bu prosesdə həkimlərin üzərinə böyük məsuliyyət düşür, çünki uşaqların sağlam böyüməsi gələcəyin güclü cəmiyyətinin əsasını təşkil edir. Professor, həmçinin vurğulayıb ki, müasir dövrdə uşaqların psixoloji vəziyyəti ciddi narahatlıq doğurur: təxminən 35-40% uşağın depressiya riski altında olması və hər 10 uşaqdan birinin əlillik daşıması həmin məsuliyyəti daha da artırır. Buna görə də uşaqlara həm tibbi, həm də psixoloji dəstəyin gücləndirilməsi vacibdir.

Kafedra müdiri əlavə edib ki, 2009-cu ilin ölkədə "Uşaq ili" elan edilməsi və sonrakı dövlət proqramları uşaqların rifahına və himayəsiz uşaqların sosial müdafiəsinə xidmət edir.

Daha sonra çıxış edən Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli bildirib ki, 20 noyabr - Ümumdünya Uşaq Hüquqları Günü BMT tərəfindən uşaqların hüquqlarına diqqəti artırmaq məqsədilə təsis edilib. Bu günün yaranması 1959-cu il Uşaq Hüquqları Deklarasiyası və 1989-cu il Uşaq Hüquqları Konvensiyasının qəbuluna səbəb olub. Konvensiyanın əsas məqsədi uşaqların yaşamaq, inkişaf etmək, təhsil almaq və zorakılıqdan qorunmaq kimi fundamental hüquqlarını təmin etməkdir.

O qeyd edib ki, II Dünya müharibəsi zamanı uşaqlara qarşı törədilən ağır cinayətlər - eksperimentlər, qırğınlar, insan alveri beynəlxalq təşkilatları uşaqların müdafiəsini gücləndirməyə sövq edib. Bu baxımdan noyabrda ölkəmizdə keçirilən "Uşaq hüquqları" aylığı dövlətin uşaqlara verdiyi dəyərin göstəricisidir.

F.Mədətli bildirib ki, Azərbaycan 1992-ci ildə Uşaq Hüquqları Konvensiyasına qoşulub, "Uşaq hüquqları haqqında" qanun və digər normativ sənədlər isə uşaqların sosial müdafiəsini gücləndirir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədə həyata keçirdiyi təşəbbüslər ölkədə uşaq rifahının yaxşılaşdırılmasına mühüm töhfə verir.

Dosent Elbrus Sadıqov çıxışında qeyd edib ki, gələcəyimiz indiki uşaqlardan asılıdır və onların hüquqlarının qorunması, sağlam və təhlükəsiz böyüməsi son dərəcə vacibdir. Ona görə də uşaq hüquqlarının müdafiəsi yalnız dövlətin vəzifəsi deyil, Ombudsman və qeyri-hökumət təşkilatları kimi qurumlar da bu prosesdə yer almalıdır: "Maariflendirici tədbirlər artırılmalı, liderlik, komanda işi, ünsiyyət və problemlərin həlli kimi bacarıqların inkişafına diqqət yetirilməlidir. Sağlam və təhlükəsiz uşaqlar - sağlam və güclü gələcəyin təminatıdır".

Sonda Fərəh Mədətli və Qoşqar Əliyev tədbiri yekunlaşdıraraq vurğulayıblar ki, uşaqların hüquqlarının qorunması hər birimizin üzərinə düşən mənəvi vəzifədir. Universitet və cəmiyyət olaraq tələbələr üçün rahat və dəstəkli mühit yaradılır, lakin hər bir vətəndaş, müəllim və tələbə uşaqların təhlükəsizliyi və hüquqlarının müdafiəsinə aktiv şəkildə töhfə verməlidir. İctimai fənlər kafedrası bu təşəbbüslərin həyata keçirilməsində xüsusi rol oynayır.

Tədbirdə universitetin müəllimləri və tələbələr iştirak ediblər.

**Aytac ƏSƏDOVA**

# Vaxtından Əvvəl Doğulmuşlar Günü münasibətilə tədbir keçirilib

**Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu və Elmi-Tədqiqat Mama-Ginekologiya İnstitutunun birgə təşkilatçılığı ilə Vaxtından Əvvəl Doğulmuşlar Günü ilə əlaqədar beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Çıxışlarda vaxtından əvvəl doğulan körpələrin sağlamlığının qorunması, perinatal dövrdə rast gəlinən çətinliklərin həlli, multidissiplinar yanaşmanın gücləndirilməsi və bu sahədə tətbiq edilən yeni elmi nailiyyətlər barədə fikirlər səsləndirilib.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Qazaxıstan və Özbəkistandan olan mütəxəssislər də onlayn formatda konfransa qoşularaq neonatal cərrahiyyə sahəsində öz elmi-praktik təcrübələrini bölüşüblər.

Ümumilikdə panel müzakirələri zamanı 20-dən çox mövzu üzrə məruzələr təqdim olunub. 300 mütəxəssisin iştirakı ilə keçirilən konfrans Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 8 DTT kredit balı ilə qiymətləndirilib.




**17 noyabr - Vaxtından Əvvəl Doğulmuşlar Günü münasibətilə universitetimizin Tədris Cərrahiyyə Klinikasında tədbir keçirilib. Tədbirdə klinikanın Neonatal intensiv terapiya şöbəsinin müdiri, I Uşaq xəstəlikləri kafedrasının assistenti Sərxan Elbəyiyev çıxış edərək dünyada və Azərbaycanda prematür doğuşlarla bağlı vəziyyət barədə məlumat verib.**




# "Prematür körpənin sağ qalması kifayət deyil"

Həkim bildirib ki, 2008-ci ildən etibarən 17 noyabr bütün dünyada Vaxtından Əvvəl Doğulmuşlar Günü kimi qeyd olunur və məqsəd prematür doğuşların riskləri barədə ictimaiyyəti maarifləndirməkdir. Həmiləliyin 37-ci həftəsinədək doğulan körpələr prematür sayılır və hər il dünyada təxminən 15 milyon uşaq belə anadan olur. Onların təxminən 1 milyonu isə 5 yaşına çatmadan həyatını itirir. O, klinikanın 2023-2025-ci illəri əhatə edən statistikasını da təqdim edib. Belə ki, 35-37 həftəlik 650 körpədən yalnız biri, 28-34 həftəlik 103 körpədən 13-ü, 28 həftədən aşağı doğulan 25 körpədən isə 17-si həyatını itirib.

Həkimin sözlərinə görə, nəticələr dünya üzrə orta göstəricilərdən yaxşı olsa da, neonatal xidmətlərin təkmilləşdirilməsinə ehtiyac var.

S.Elbəyiyev vurğulayıb ki, vaxtından əvvəl doğuşa səbəb olan başlıca risk faktorları əvvəlki yarımçıq doğuş, şəkərli diabet, siqaret və alkoqol istifadəsi, eləcə də qeyri-düzgün qidalanmadır. Mütəxəssis qeyd edib ki, prematür körpələrdə tənəffüs çatışmazlığı, ürək-damar problemləri, mədə-bağırsaq xəstəlikləri və anemiya kimi qısa müddətli fəsadlara daha çox rast gəlinir. Uzun müddətli risklərə isə, görmə və eşitmə problemləri, serebral iflic, infeksiyalara meyillilik və inkişaf geriliyi daxildir.

O bildirib ki, vaxtından əvvəl doğuşun qarşısının alınmasının əsas yolu gücləndirilmiş antenatal nəzarətdir və hamilələrin mütəmadi müayinəsi, vaxtında ultrasəs yoxlamaları və sağlam həyat tərzi bu riskləri əhəmiyyətli dərəcədə azaldır: "Prematür körpənin sadəcə sağ qalması kifayət deyil. Biz onun gələcəkdə əlillik riski daşımaması üçün bütün mümkün fəsadların qarşısını almalıyıq".

Sərxan Elbəyiyev çıxışını bu sözlərlə bitirib: "İnsandan başqa heç bir canlı yarımçıq doğulmur. Biz neonatoloqlar bəzən möcüzə işlər görürük. Amma unutmamalıyıq ki, bizim ən böyük dayağımız ginekoloqlardır və düzgün antenatal baxım olmadan bu uğurlara nail olmaq mümkün deyil".

Tədbirdə universitet və klinikanın əməkdaşları, həkimlər və rezidentlər iştirak edib.

# Almaniyalı professor epilepsiya haqda məruzə oxuyub



Noyabrın 19-da Tədris Terapevtik Klinikada Nevrologiya kafedrası və Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə rezidentlər və gənc həkimlər üçün “Fokal kortikal displaziyalar: klinikası, EEG mənzərəsi və müalicə prinsipləri” adlı elmi seminar keçirilib.

Seminarın moderatorları Nevrologiya və tibbi genetika kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahiyyəsi kafedrasının assistenti Namiq Xəlilov olub.

A.Məmmədbəyli çıxışında epilepsiya sahəsində yeniliklərin və beynəlxalq təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. N.Xəlilov isə epilepsiyanın müxtəlif klinik formaları, uşaqlarda müasir müalicə üsulları - dərman terapiyası, ketogenik pəhriz, cərrahiyyə və reabilitasiya haqqında məlumat verib.

Daha sonra məruzəçi, Almaniyanın Kiel Universitetinin fəxri professoru Ulrix Stefan çıxış edərək fokal kortikal displaziyalar zamanı epilepsiyanın klinik xüsusiyyətləri, EEG göstəriciləri və müasir neyrocərrahi müalicə yanaşmaları barədə aktual məlumatlar təqdim edib. O, dərmana davamlı hallarda cərrahi müalicənin yüksək effektivliyini və bu qərarın yalnız geniş diaqnostika və mütəxəssis komandasından qiymətləndirməsindən sonra verilməli olduğunu qeyd edib. Professor əməliyyatların pasiyentin həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırdığını bildirib.

Sonda məruzəçi seminar iştirakçılarının - gənc həkimlərin, rezidentlərin və tələbələrin suallarını cavablandırıb.

# Nevroloqlarımız beynəlxalq konqresdə iştirak edib

Qazaxıstanın Almatı şəhərində VII Beynəlxalq Türk Dünyası Dağınıq Skleroz Konqresi keçirilib.

Nüfuzlu elmi tədbirdə Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının əməkdaşları - kafedra müdiri, professor Aytən Məmmədbəyli, dosent Şəhla Məmmədova və assistent Nuridə Tağıyeva elmi məruzələrlə çıxış ediblər.




Azərbaycanlı mütəxəssislərin təqdimatında dağınıq skleroz xəstəliyində süni intellekt texnologiyalarının tətbiqi, eləcə də Azərbaycanda multipl sklerozun epidemiologiyası, yayılma dinamikası və görülmə tezliyi kimi aktual mövzular müzakirə olunub.

Konqres çərçivəsində türk dünyasının müxtəlif ölkələrindən olan alimlər arasında elmi əməkdaşlıq və təcrübə mübadiləsi aparılıb, gələcək birgə tədqiqat istiqamətləri üzrə təşəbbüslər irəli sürülüb.

**7-11 noyabr tarixlərində Türkiyənin Bursa şəhərində türkdilli ölkələrdən pediatriya sahəsinin tanınmış alimləri, ixtisaslı həkim və mütəxəssislərin iştirakı ilə "5-ci Beynəlxalq Sağlam Böyüyən Uşaq Konqresi" və "Nə üçün pediatriya?" mövzusunda "3-cü PUADER Pediatriya Zirvəsi" keçirilib.**

# Türkdilli ölkələrin pediatriya mütəxəssisləri Bursada toplanıb




Konqresdə gündəlik praktikada faydalı olan, uşaq sağlamlığı ilə bağlı ən vacib mövzularda son yeniliklər iştirakçılara təqdim edilib.

Beynəlxalq tədbirdə ölkəmizi təmsil edən nümayəndə heyətinin tərkibində ATU-nun əməkdaşları - Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, II Uşaq xəstəlikləri kafedrasının dosenti Təranə Tağı-zadə, APA-nın üzvü olan həkimlər, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva, Beynəlxalq əlaqələr şöbəsinin kafedra üzrə koordinatoru, dosent Ülviyyə Hacıyeva və II Uşaq xəstəlikləri kafedrasının dosenti, İctimai səhiyyə fakültəsində “Tibb bacısı işi” ixtisası üzrə koordinator, tibb üzrə fəlsəfə doktoru Fəxriyyə Məmmədova olublar.

T. Tağı-zadə Assosiasiyanın fəaliyyəti və beynəlxalq miqyasda qazandığı nüfuz barədə geniş təqdimatla çıxış edib. O vurğulayıb ki, Assosiasiyanın məqsədi yalnız uşaq həkimlərini birləşdirmək deyil, həm də regionda pediatriya elminin inkişafına, tibb təhsili və klinik praktikada müasir standartların tətbiqinə töhfə verməkdir: “APA-nın fəaliyyəti çərçivəsində Türkiyə səhiyyə qurumları ilə çoxistiqamətli əməkdaşlıq əlaqələri formalaşıb. Bu əlaqələr birgə konqreslər, elmi simpoziumlar, təlim proqramları və klinik təcrübə mübadilələri vasitəsilə davam etdirilir. Türkdilli dövlətlərin pediatr və mütəxəssislərinin APA-nın təşkil etdiyi tədbirlərdə fəal iştirakı həm elmi, həm də mənəvi birliyə xidmət edir”.

Ü.Hacıyeva öz çıxışında profilaktik yanaşmaların uşaq sağlamlığının qorunmasında rolu haqqında danışıb. O, pediatrik təcrübədə multidissiplinar yanaşmanın vacibliyini vurğulayaraq, bu istiqamətdə beynəlxalq əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd edib.

F.Məmmədova “Qloballaşan dünyada uşaqlarda qeyri-infeksion xəstəliklərin risk amilləri” mövzusunda çıxış edib. O, müasir həyat tərzinin, urbanizasiya və qidalanma vərdişlərinin uşaqlarda qeyri-infeksion xəstəliklərin yayılmasına təsir etdiyini, erkən profilaktik tədbirlərin və valideyn maarifləndirilməsinin önəmini vurğulayıb.

Ş.Balayeva isə “Uşaqlarda fiziki inkişaf pozğunluqları və artıq çəki problemlərinin risk amilləri” mövzusuna toxunub. O, uşaqlarda fiziki inkişafın izlənməsi, düzgün qidalanma və fiziki aktivliyin vacibliyi məsələlərindən danışıb. Artıq çəkinin erkən yaşlarda müəyyənləşdirilməsinin gələcəkdə xroniki xəstəliklərin qarşısının alınmasında əsas addım olduğunu bildirib.

Tədbir çərçivəsində kurslar, tanınmış mütəxəssislərin çıxış etdiyi panellər, konfranslar, şifahi və poster təqdimatları baş tutub.

# Beynəlxalq Kişilər Günü qeyd olunub



**19 noyabr – Beynəlxalq Kişilər Günü münasibətilə Urologiya kafedrasında tədbir keçirilib.**

Tədbiri kafedranın müdiri, professor Rauf Nağıyev açaraq bildirib ki, beynəlxalq kişi sağlamlığı günü 1999-cu ildən kişinin ailədə və cəmiyyətdə rolunu göstərmək, gender münasibətlərinə aydınlıq gətirmək və sağlamlığın təşviqi məqsədi ilə keçirilir. O, kafedranın bu sahədə müalicə, konservativ və cərrahi fəaliyyəti, eləcə də ölkədə operativ andrologiyanın inkişafındakı rolunu qeyd edib.

Professor bildirib ki, Azərbaycanda operativ andrologiya 2004-2005-ci illərdə akademik Sudeyf İmamverdiyevin rəhbərliyi ilə ilk dəfə ATU-nun Urologiya kafedrasında tətbiq olunub. Sonrakı illərdə professor İlham Əhmədovun fəaliyyəti nəticəsində andrologiya sahəsində geniş əməliyyatlar icra edilib və 3 dərslik, 7-8 monoqrafiya, həmçinin 80-dən çox elmi məqalə hazırlanıb.

Tədbirdə çıxış edən Rezidentura və Magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov tədbirin reproduktiv sağlamlıq, urologiya və andrologiya kimi tibbin aktual sahələrinə həsr olunduğunu qeyd edərək bütün əməkdaşlara, rezidentlərə və tələbələrə təşəkkürünü bildirib. O vurğulayıb ki, reproduktiv sistemdə yaranan qüsurlar həkimlərin fəaliyyətində əsas diqqət tələb edən məsələlərdəndir və hər bir həkim sağlam cəmiyyətin formalaşmasında mühüm rol oynayır.

Daha sonra professor İlham Əhmədov “Müasir andrologiyada aktual problemlər” mövzusunda çıxış edərək andrologiyanın kişi və qadın cinsi sağlamlığı, kişi sonsuzluğu və cinsi pozuntularla bağlı patoloji və müalicə məsələlərini əhatə etdiyini qeyd edib. O bildirib ki, 2024-cü ildə andrologiya dərsliyinin yenilənmiş versiyası çapa hazırlanıb və sahə üzrə əsas mövzular bu nəşrdə öz əksini tapıb. Professor, həmçinin məlumat verib ki, Azərbaycan Androloji Təbabət Assosiasiyası ayın 24-də müxtəlif ixtisaslardan mütəxəssislərin iştirakı ilə geniş toplantı keçirəcək və bütün iştirakçılar həmin tədbirə qoşula bilər.

Tədbirdə universitetin əməkdaşları, həkimlər, rezidentlər və tələbələr iştirak edib.

**Beynəlxalq Kişilər Günü münasibətilə Dermatovenerologiya kafedrasında da tədbir keçirilib. Tədbiri kafedra müdiri, professor Fərid Mahmudov açıb.**

# Kişi sağlamlığı cəmiyyətin ümumi rifahına təsir göstərir

Bildirib ki, dünyada kişi sağlamlığı mövzusu son illər diqqət mərkəzinə gəlib: “Bu sahədə problemlər cəmiyyətin həyat tərzindən tutmuş, ailədaxili münasibətlərə qədər geniş bir spektri əhatə edir. Müasir dövrümüzdə kişilər üçün ən aktual problemlərdən biri cinsi yolla keçən xəstəliklərin sürətlə artmasıdır. Bu istiqamətdə nə qədər mübarizə aparılsa da, xəstəliklərin yeni növləri yaranır və yoluxma halları azalmaq əvəzinə artır”.





Professor, belə bir günün keçirilməsinin cəmiyyətimiz üçün böyük faydasından söhbət açıb. Qeyd edib ki, 1970-ci ildə aparılan tədqiqatlara görə, 20-40 yaşlı kişilərin sperma göstəriciləri orta hesabla 96 milyon olub: “2010-cu ildə eyni parametr üzrə nəticələr 45 milyon olaraq qeydə alınıb. Bu da onu göstərir ki, 40 il ərzində göstəricilər iki dəfədən çox azalıb. Bu tendensiya yaxın gələcəkdə uşaqların sağlamlıq vəziyyətinə ciddi təsir göstərə bilər”.

Tədbir zamanı kafedra müdirinin müavini Fikriyyə Balakişiyeva da kişilərin üzləşdiyi sağlamlıq problemlərindən danışıb. Bildirib ki, 1980-ci illərdə Azərbaycanda sperma analizləri ciddi çətinliklə aparılırdı: “O zaman yalnız bir-iki laboratoriya spermatozoidlərin hərəkət qabiliyyətini yoxlaya bilirdi. Həmin dövrdə sağlam görünən gənclərin analiz nəticələrində spermatozoidlərin hərəkətlilik göstəriciləri 30-40% aşağı idi ki, bu da sonsuzluq riskini artırırdı”.

F.Balakişiyeva, zamanla ekoloji dəyişikliklər, hərəkətsizlik və cinsi yol infeksiyalarının bu problemi daha da dərinləşdirdiyini nəzərə çatdırıb. Əvvəllər prostat problemlərinin yalnız yaşlı kişilərdə müşahidə edildiyini, amma son illər belə halın cavanlarda da özünü büruzə verdiyini təəssüflə vurğulayıb. Səbəbini isə cinsi yol infeksiyalarının vaxtında müalicə olunmaması və hərəkətsiz həyat tərzi ilə əlaqələndirib.

Dosent Yunis Mirzəyev də kişi sağlamlığının aktual problemlərinə toxunub. Onun sözlərinə görə, kişi sağlamlığı yalnız fərdi məsələ deyil, həm də cəmiyyətin ümumi rifahına təsir göstərən amildir. Bu baxımdan müzakirələrin davamlı aparılması, ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə işlərinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Rezident İsmayıl İsmayıl kişilərin ən çox yoluxduğu yoluxucu xəstəliklər, xəstəliklərdən qorunma yolları, gigiyenik qaydalara necə riayət olunması və s. məsələlərə toxunub. Laborant Vahid Mahmudov isə xanımları kişilərə biganə yanaşmamağa, həssaslıq göstərməyə, onları qorumağa çağırıb.

**Tanınmış ortodontiya mütəxəssisi, professor Jean-Marc Retrouvey rezidentlər və həkimlər üçün "Rəqəmsal texnologiyaların ortodontiyada tətbiqi" mövzusunda elmi-praktik mühazirə keçirib.**

## Rəqəmsal texnologiyalar ortodontiyada




Tədbiri açan Ortodontiya kafedrasının müdiri, professor Ramidə Şadlinskaya bildirib ki, rəqəmsal texnologiyalar artıq klinik fəaliyyətin ayrılmaz hissəsinə çevrilib və müasir klinik keyfiyyət standartlarını formalaşdırıb.

Mühazirənin beynəlxalq elmi əməkdaşlığın inkişafına və rezidentlərin, həkim-ortodontların müasir rəqəmsal texnologiyalar sahəsində bilik və bacarıqlarının artırılmasına töhfə verəcəyi qeyd olunub. İştirakçılar müasir ortodontiyada rəqəmsal texnologiyaların rolunu öyrənib və praktik bacarıqlarını inkişaf etdirib.

**Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyevin rəhbərliyi ilə Tədris Cərrahiyyə Klinikasında 84 yaşlı kişi pasiyent üzərində uğurlu transperitoneal laparoskopik kistektomiya əməliyyatı icra olunub.**

## Yaşlı pasiyent üzərində böyrək əməliyyatı icra olunub



Pasiyent klinikaya sol bel nahiyəsində daimi, küt xarakterli ağrılar və gün ərzində arterial təzyiqin dəyişkənliyi (oynaması) şikayətləri ilə müraciət edibmiş. Aparılmış müayinələr nəticəsində sol böyrəyin yuxarı qütbündə, dalaq nahiyəsində 7 sm-dən böyük ölçülü solitar (tək) kista aşkar olunub.

Professor və onun komandası tərəfindən həyata keçirilən laparoskopik əməliyyat uğurla başa çatıb.

## Rezidentlər üçün "Cərrahiyyədə endoskopik kurs" keçirilib

Tədris Cərrahiyyə Klinikasında həkim-rezidentlər üçün "Karl Storz" şirkətinin texniki dəstəyi ilə "Cərrahiyyədə endoskopik kurs" keçirilib. Tədbirin təşkilatçıları və moderatorları III Cərrahi Xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalov və Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov olub.

"Karl Storz" şirkətinin fəaliyyəti haqda qısa məlumat verən N.Xəlilov, universitet rəhbərliyinə rezidentlərin davamlı təhsilinə göstərdiyi diqqətə görə təşəkkürünü bildirib.

Daha sonra professor F.Camalov öz kliniki təcrübəsindən danışaraq, müasir cərrahiyyədə endoskopiya və laparoskopiyanın tutduğu mühüm yeri vurğulayıb. O, endoskopik və laparoskopik əməliyyatlar zamanı qarşılaşılan mürəkkəb vəziyyətlər haqqında danışıb və tədbir iştirakçılarının, xüsusilə gənc həkim-rezidentlərin çoxsaylı suallarını cavablandırıb.



Ardınca kursun texniki dəstəkçisi, "Karl Storz" şirkətinin Azərbaycan üzrə meneceri Taleh Bəşirov çıxış edərək, laparoskopik alətlərin əməliyyata hazırlanması, sterilizasiyası və təhlükəsiz istifadəsi barədə ətraflı və praktik məlumatları iştirakçılarla paylaşıb.

## Şəkərli diabet xəstələri ödənişsiz müayinə edilib

**Ümumdünya Şəkərli Diabetlə Mübarizə Günü münasibətilə Tədris Terapevtik Klinikada ödənişsiz aksiya keçirilib. II Daxili xəstəliklər kafedrasının assistenti, endokrinoloq Könül İsmayılova bildirib ki, aksiyanın əsas məqsədi daha çox insana müayinə imkanı yaradaraq diabetin erkən aşkarlanmasına nail olmaqdır.**

Onun sözlərinə görə, şəkərli diabetin bəzi əlamətləri uzun müddət hiss olunmaya bilər və bu da diaqnozun gec qoyulmasına gətirib çıxarar: "Yadda saxlamalıyıq ki, şəkərli diabetin əlamətləri hər zaman nəzərə çarpmaya bilər. Diaqnoz qoyulana qədər çox vaxt itirmiş oluruq. Buna görə insanlar mütəmadi olaraq müayinələrdən keçməlidirlər".

Həkim, həmçinin qan şəkərinin ölçülməsi ilə bağlı vacib məqamları qeyd edib: "Qan şəkəri acqarına, ən azı 10 saatlıq aclıqdan sonra ölçülməlidir. Şübhəli nəticələr olduqda isə ölçmə, ən azı iki dəfə, müxtəlif günlərdə təkrarlanmalıdır. Əgər dəqiq nəticə əldə etmək mümkün olmazsa, gizli diabeti aşkarlamaq üçün 3 aylıq şəkər səviyyəsini göstərən qlükohemoqlobin adlanan analizin



aparılması zəruridir".

Aksiya zamanı diabetli xəstələrdə rast gəlinən ağırlaşmalar da dəyərləndirilib. Xüsusilə taktil hissiyyatın pozulması "kamerton" cihazı vasitəsilə yoxlanılıb. Zərurət yaranan hallarda isə, xəstələr əlavə laborator analizlər üçün müvafiq laboratoriyaya yönləndirilib.

# Əməkdaşlarımızın uğurları



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Yaxın Şərq Oftalmoloji Konfransı"nda əməkdaşımız böyük uğur qazanıb.

Belə ki, Oftalmologiya kafedrasının dosenti Aysel Qəlbinur və rezident Gülnur Abdullayeva tərəfindən 10 ildən artıq müddətdə müşahidə edilən nadir retinal patologiya ilə bağlı klinik hal konfransa təqdim edilib. "Long time follow-up of rare retinal pathology: A case report" adlı elmi məruzə münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilərək müsabiqədə birinci yerə layiq görülüb və xüsusi mükafatla təltif olunub.

Bu nailiyyət ATU-nun beynəlxalq elmi platformalarda artan nüfuzunun və gənc tədqiqatçılarımızın uğurlu fəaliyyətinin növbəti göstəricisidir.

* * *



Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti Kəmalə Bədəlova COST Assosiasiyasının (Elm və Texnologiyada Avropa Əməkdaşlıq Təşkilatı) OC-2025-1 Açıq Çağırışı üzrə təqdim olunan təkliflərin məsafədən qiymətləndirilməsi üçün xarici ekspert qismində seçilib.

K.Bədəlova elmi fəaliyyəti ilə beynəlxalq səviyyədə tanınan tədqiqatçılar arasında yer alır. Onun müxtəlif mövzuları əhatə edən 65-dən çox elmi məqalə və tezisi Web of Science, PubMed və Scopus bazalarında indekslənən, Q1, Q2 və Q4 kvartillərinə daxil olan nüfuzlu elmi jurnal və konfrans materiallarında dərc olunub. O həmçinin ABŞ, Şimali Kipr, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Özbəkistan və digər ölkələrdə keçirilən bir sıra beynəlxalq simpozium və konfranslarda poster və şifahi məruzələrlə çıxış edib. K.Bədəlova, eyni zamanda Almaniyada nəşr edilən "Recent Advances in Medical Sciences (Volume 3)" kitabının baş redaktoru, "Elsevier" və "Springer" nəşriyyatlarına məxsus jurnalların rəyçisidir.

* * *



Azərbaycan dili kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Dürdanə Nağıyeva Türk Dövlətləri Təşkilatının Türk Universitetlər Birliyi tərəfindən hazırlanmış ORHUN mübadilə proqramına qoşulub. O, 2025-2026-cı tədris ili çərçivəsində Türkiyənin İzmir şəhərindəki Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunda təşkil olunmuş proqram layihəsində iştirak edib. Daha çox tibb sahəsi üzrə fəaliyyət göstərən müəllimlərin qatıldığı bu proqramda D.Nağıyeva ölkəmizi və universitetimizi layiqincə təmsil edib, apardığı dərslər yüksək qiymətləndirilib və fəaliyyəti Ege Universiteti tərəfindən təşəkkür məktubu ilə dəyərləndirilib.

* * *



Xarici dillər kafedrasının müəllimi Jalə Alcanova beynəlxalq səviyyəli kursda iştirak edib. O, Arizona Dövlət Universiteti tərəfindən təşkil olunmuş nüfuzlu TESOL ixtisaslaşma kursunu uğurla başa vurub, ona müvafiq sertifikat verilib.

Kursla bağlı təəssüratlarını bölüşən J.Alcanova bildirib ki, TESOL kursu onun pedaqoji fəaliyyəti üçün böyük bir töhfədir: "TESOL beynəlxalq qüvvəyə malik sənəddir və dil biliklərinin ən yüksək səviyyədə olmasının təsdiqidir. Mənə dəstək olan həmkarlarıma və dostlarıma təşəkkür edirəm".

* * *

Sivas Cümhuriyyət Universitetinin Mühəndislik fakültəsi və İKSAD İnstitutunun təşkilatçılığı ilə Beynəlxalq Mühəndislik Elmləri Tələbə Konqresi keçirilib.


CERTIFICATE
OF PARTICIPATION
Dr. Arzu IBISHOVA

Tədbirdə iştirak edən universitetimizin Patologiya kafedrasının assistenti Arzu İbişovanın elmi çıxışı böyük maraqla qarşılanıb. O, "Süni intellekt patoloqu nə dərəcədə əvəz edə bilər?" mövzusunda məruzəsində patologiyanın klassik diaqnostika metodlarından tutmuş, rəqəmsal patologiyanın inkişafı, üstünlükləri və bu sahədə süni intellektin tətbiq imkanlarınadək geniş məlumat təqdim edib.

Çıxış mühəndis tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

* * *



Rezident Tahirə Allahverdiyeva Antalyada keçirilən Dünya Uşaq Cərrahiyyəsi Konfransı çərçivəsində beynəlxalq elmi proqramda iki poster təqdimatı ilə çıxış edib. Onun elmi rəhbəri uşaq cərrahı Aqil Abilovdur.

İlk poster genişmiqyaslı klinik araşdırma nəticələrinə həsr olunub. Belə ki, son 7 il ərzində doğulan 7584 körpədən nekrotizan enterokolit diaqnozu qoyulmuş 277 xəstənin klinik göstəriciləri və müalicə nəticələri təhlil edilib.

İkinci poster isə nadir rast gəlinən "Rotasyon anomaliya" mövzusunda təqdim olunub. Hər iki təqdimat xarici mütəxəssislərin marağına səbəb olub və müsbət qiymətləndirilib.

* * *



III Cərrahi xəstəliklər kafedrasının dosenti Elnarə Nəbiyeva 2025-ci ilin payız semestrində Orhun mübadilə proqramı çərçivəsində Türkiyənin Ərzurum şəhərində yerləşən Atatürk Universitetində iki həftəlik akademik fəaliyyət həyata keçirib.

Səfər zamanı E.Nəbiyeva Tibb bacılığı fakültəsində tələbələr və müəllim heyəti üçün bir sıra nəzəri və praktik tədris tədbirlərində iştirak edib. O, çıxışlarında cərrahi infeksiyaların növləri və onların klassifikasiyası, cərrahi xəstələrin müayinəsində tibb bacısının rolu, qanaxmaların növləri və onların idarə olunması, həmçinin yara baxımının müasir prinsipləri mövzularında ətraflı mühazirələr oxuyub.

Əməkdaşımız, həmçinin professor-müəllim heyəti ilə görüşlər keçirib, gələcəkdə birgə elmi layihələrin, tədqiqatların və tələbə təcrübə proqramlarının həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparıb.

# Sirroz – qaraciyərin qara bəxti

**Professor Sədrəddin Atakişizadə ağrısız baş verən ağır xəstəlikdən danışır**



**Məlum olduğu kimi, ölkəmizdə qaraciyər sirrozunun əmələ gəlmə səbəbləri sırasında əsas yerlərdən birini virus hepatitləri tutur. O cümlədən alkoqollu içkilər, qaraciyərin piylənməsi də sonda sirroza gətirib çıxarır.**

Xəstəlikdən qorunma yolları, müayinəsi, müalicəsi və digər məsələlərlə bağlı ətraflı məlumat almaq üçün Yoluxucu xəstəliklər kafedrasının professoru, həkim-infeksionist Sədrəddin Atakişizadə ilə əlaqə saxladıq. Professor qaraciyər xəstəliklərinin günümüzün aktual problemlərindən olduğunu bildirdi: "Sirroz - hər hansı bir səbəbdən baş vermiş hepatitlərin qarşısı vaxtında alınmayanda, ondan sonrakı ağırlaşmadır. Qaraciyər toxumasının sərtləşməsi, bərkiməsi kimi özünü göstərir. El arasında "daşlaşma" da deyilir ki, bu da xəstəliyin ağırlaşma halı hesab olunur.

Cəmiyyətdə ən çox rastlaşdığımız virus mənşəli hepatitlərdir. Yəni B və C hepatitlərinə yoluxan insanlar arasında qaraciyər sirrozu xəstəliyi üstünlük təşkil edir. Bunun qarşısını vaxtında almaq üçün ilk növbədə etioloji faktoru, yəni törədici amili aradan qaldırmaq lazımdır. Araşdırma aparılmalı, hepatitin növlərinə uyğun olaraq, xəstə virus əleyhinə dərmanlarla müalicə olunmalıdır. Qaraciyər toxumasının zədələnməməsi üçün viruslar qanda dondurulmalıdır. Əks halda, həmin viruslar qaraciyər toxumasına daxil olur, orqanı dəyişikliyə uğradır. Dəyişiklikdən sonra qaraciyər hüceyrəsinin yerində məhv olmuş hüceyrələr bir-biri ilə birləşir və fibroz toxuma əmələ gətirir. Əgər sirrozun əmələ gəlməsi alkoqolla bağlıdırsa, xəstə spirtli içkinin qəbulunu qəti surətdə dayandırmalıdır. Antibiotiklərin uzun müddət istifadəsi də qaraciyəri zədələyir. Bu zaman toksiki sirrozun yaranmasına səbəb olur. Ona görə də dərman istifadəsi və toksiki qəbul edilən nə varsa, hamısı dayandırılmalıdır.

Bir də autoimmun hepatitləri var ki, bu da orqanizmin öz hesabına yaranır. Onun da qarşısı zamanında alınmalıdır ki, qaraciyərə qarşı aqressivlik göstərməsin". Professor qaraciyərin funksional pozğunluğu olmasın deyə, müalicəyə üstünlük verildiyini qeyd etdi. Söylədi ki, müalicəylə qaraciyərdə bərkimə, daşlaşma tam aradan qalxmasa da, prosesi dayandırmaq, xəstənin ömrünü uzatmaq mümkündür: "Bilirsiniz ki, qaraciyər orqanizmin irihəcimli orqanlarından hesab olunur və çoxlu sayda funksiyalar yerinə yetirir. Qaraciyər dözümlü orqandır. Əgər qaraciyərdə funksional pozğunluq baş verirsə, onun biokimyəvi göstəriciləri dəyişir. Bəzən pasiyentlər deyir ki, həkim, mənim heç bir yerim ağrımır, amma analiz nəticələrində qaraciyər pozğunluğu aşkar olunub. Bu həqiqətən də belədir. Qaraciyər ağrısız orqandır, çünki onda ağrını keçirən sinir ucları yoxdur. Amma qaraciyər böyüyəndə və ya sərtləşəndə ağrı qaraciyərin kapsulunun gərilməsi nəticəsində baş verir. Bəzən xəstələr kürəklərinin sağ nahiyəsində ağrı hiss etdiklərindən şikayətlənirlər. Bu, kapsulun gərilməsi ilə əlaqədardır".

S.Atakişizadə diqqətə çatdırdı ki, insanlar özlərində yorğunluq, halsızlıq, yuxululuq, ayaqlarda şişkinlik, gözlərdə və ya sidikdə sarılıq hiss edirsə, mütləq mütəxəssisə müraciət etməli, müayinə olunmalıdır. Çünki bunlar erkən simptomlardır. Əks halda, qan qusma, qarın boşluğunda mayenin toplanması, sidiyin qaralması, koma, qaraciyər xərçəngi və s. həyati təhlükəli ağırlaşmalar baş verə bilər.

Həkim-infeksionist bu cür xoşagəlməz hallarla qarşılaşmamaq üçün ildə bir dəfə infeksiyalara qarşı müayinə olunmağı tövsiyə edir: "Biz sirrozun bütün mərhələlərində - istər kompensasiya, istərsə də dekompensasiya mərhələsində olsun, xəstələrə yardım edə bilirik. Qaraciyər regenerasiya olunan orqandır. Amma fibroza uğramış qaraciyər toxuması özünü bərpa edə bilmir. Müalicə faydalı olmayanda isə, son addım kimi qaraciyər transplantasiyasını həyata keçirmək məcburiyyətində qalırıq".

**Q.ZİMİSTANOĞLU**

# Payızın "bəzəyi" zökəm...

**Payızın soyuq gəlişi bir sıra xəstəliklərin artmasına səbəb olub. Onların içərisində geniş yayılmış xəstəliklərdən biri də el arasında zökəm kimi tanınan rinitdir. Rinit – burun selikli qişasının iltihabıdır. Bu xəstəlik zamanı burun tutulması, axıntı, asqırma, qaşınma, bəzən də qoxu hissinin zəifləməsi müşahidə olunur. Rinitin kəskin və xroniki olmaqla iki formasına rast gəlinir.**



**Kəskin rinit** adətən virus, bakterial infeksiyalar (soyuqdəymə, qrip) nəticəsində yaranır.

**Xroniki rinit** isə uzun müddət davam edir və bir neçə forması olur. Havaların soyuması ilə əlaqədar kəskin rinitə daha çox rast gəlinir. Bunun da əsas səbəbi tez-tez dəyişən havaya uyğun geyimin düzgün seçilməməsi, immunitetin zəifləməsi, tədrisin başlanması ilə əlaqədar şagird və tələbələrin qapalı müəssisələrdə kütləvi toplanmasıdır.

Kəskin rinitin əsas əlamətləri yüksək hərarət, baş ağrıları, halsızlıq, burun tutulması və ya axması, asqırma tutmaları, burun və gözlərdə qaşınmadır. Kəskin rinitə adətən uşaqlarda rast gəlinir və böyüklərə nisbətən onlar daha ağır keçirir. Südəmər uşaqlarda burun keçəcəkləri dar olduğundan kəskin zökəm zamanı burunun selikli qişasının cüzi şişməsi tənəffüsün çətinləşməsinə səbəb olur. Bu da uşağın qidalanmasını pozur. Nəticədə uşaqda narahatlıq, əsəbilik yaranır. Tənəffüs xüsusən gecələr pozulur, boğulma tutmaları müşahidə olunur. Düzgün müalicə olunmazsa, iltihab bronxlara, ağciyərlərə keçər və pnevmoniya kimi ağırlaşmalara səbəb ola bilər. Böyük uşaqlarda zökəm yaşlılarda olduğu kimi keçir.

Virus mənşəli zökəmin gedişatı ağır olur, hərarət 38°-40° C-ə qədər yüksəlir. Xəstələrdə ümumi halsızlıq, şiddətli baş ağrıları, əzələ ağrıları müşahidə olunur. Bakterial mənşəli rinitlərin gedişatı nisbətən yüngül keçir.

Zökəmin başlanğıc mərhələsində tərlədici dərmanlar təyin etməklə prosesi dayandırmaq mümkündür. Çoxlu maye qəbulu, mürəbbəli çay, bitki çayları, kompot içmək məsləhət görülür. Lakin hərarət yüksələrsə, xəstələrə yataq rejimi və həkim nəzarəti tövsiyə olunur. Burunun selikli qişasının ödemi və deməli burun tənəffüsünün çətinləşməsi ilə mübarizə məqsədi ilə yerli olaraq damar daraldıcı spreylərdən, dəniz suyu, izotonik və ya hipertonik məhlullardan istifadə etmək məsləhətdir.

Rinitlərin ağırlaşmaları böyüklərdə daha çox paranazal sinusitlər, orta qulağın iltihabı, bronxit kimi özünü göstərir.

Kəskin rinitin diaqnostikası çətin deyil. Lakin ağırlaşmaları nəzərə alsaq, ilkin simptomlar özünü büruzə verən zaman həkimə müraciət etmək lazımdır.

Zökəmin profilaktikası hər şeydən əvvəl orqanizmin müdafiə qabiliyyətinin yüksəldilməsini tələb edir. Düzgün qidalanma, mövsümi olaraq geyimə xüsusi diqqət yetirmək, qrip epidemiyası zamanı və qapalı məkanlarda maskalardan istifadə etmək lazımdır.

**Mənsurə HÜSEYNOVA,**
Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının assistenti

**Son vaxtlar ölkə ərazisində iri və xırdabuynuzlu heyvanlar arasında dabaq xəstəliyinin sürətlə yayılması müşahidə edilir. Dabaq xəstəliyi heyvanlar arasında geniş yayılsa da, insanlar arasında çox az rast gəlinən zoonoz infeksiyadır. Azərbaycanda son 30 ildə insanlar arasında dabaq xəstəliyi müşahidə edilməyib.**

# Dabaq: insandan-insana keçməyən yoluxucu xəstəlik



Dabaq ağızın selikli qişasının, əllərin və ayaqların dərisinin vezikulyoz-erroziv zədələnməsi ilə gedən virus mənşəli zoonoz infeksiyadır. Xəstəliyin törədicisi Picarnaviridae ailəsinə, Pinovirus cinsinə daxil olan virusdur. Virusun müxtəlif serotipləri (A, D, S, AT1, AT2, AT3 və s.) məlumdur. Bütün serotiplər eyni kliniki mənzərə törədir.

Dabaq əsasən qoşadırnaqlı (qoyun, keçi, donuz, inək) heyvanlarda xəstəlik törədərək, heyvanların ağızlarında, dırnaqlarının arasında və süd vəzisində suluqlar əmələ gətirir. Suluqlar deşilərək xoraya çevrilir. Heyvanlar yeməkdən imtina edir, ağızlarından çoxlu selik axır, dırnaqlar arasında yaralar əmələ gəlir. Heyvanlarda yüksək hərarətlə yanaşı, burun ətrafında qabarcıqlar da yaranır. Dabaq xəstəliyi heyvanlar arasında yüksək ölüm verir. Arıq və digər xəstəlikləri olan heyvanların yoluxma ehtimalı çox yüksəkdir. Buzovlarda ölüm riski yuxarıdır. Xəstəlik ət və ət məhsullarının azalması ilə nəticələn iqtisadi təhlükə yarada bilir.

İnsan çiy süd və süd məhsulları yedikdə, bəzən isə ətlə yoluxa bilər. Virus insana dəridən keçdikdə, həmçinin ağızın, gözün və burunun selikli qişasına düşdükdə xəstəlik törədir. O cümlədən virus insana hava-damcı yolu və heyvanın bioloji mayeləri ilə çirklənmiş əşyalara toxunduqda keçir.

Dabağa, əsasən heyvandarlıqla məşğul olan işçilər, bəzən isə laboratoriya işçiləri yoluxur. Dabaq insandan-insana keçmir. Xəstəliyin inkubasion dövrü 2-15 günə qədər çəkir. Dabağın dəri, selikli qişa və dəri-selikli qişa formaları mövcuddur.

Xəstəlik yüksək hərarət, əzələ və sümük ağrıları ilə qəflətən başlayır. Xəstəliyin ilk günü ağızda quruluq və göynəmə müşahidə edilir. Dildə, dodaqda, damaqda və yanağın selikli qişasında qızartı, ödem və suluqlar əmələ gəlir. 2-3 gündən sonra suluqlar deşilir, çox ağrılı xoralar əmələ gəlir. Suluqlar deşildikdən sonra yüksək temperatur ensə də, udma ağrılı olur, dil şişir, xəstə danışarkən çətinlik çəkir. Bəzi hallarda xəstələrdə sidik ifrazının çətinləşməsi və bağırsaqların disfunksiyası müşahidə edilir. Xəstənin ağızından gün ərizində 2-4 litr maye axır. Udma ilə yanaşı çeynəmə çətinləşir və ağrılı olur. Gözün, burunun, sidik yollarının selikli qişası zədələnir. Nadir hallarda səpgilər ağızın ətrafında, baldırda və ayağın altında müşahidə edilir. 4-5 gündən sonra ağızda xoralar sağalmağa başlayır, udma və çeynəmə zamanı ağrılar tədricən azalır.

Xəstəlik zamanı əl və ayaq barmaqları arasında vezikulyoz-erroziv zədələnmələr müşahidə edilir. Barmaqlar arasında xoralar sağaldıqdan sonra yerində çapıq əmələ gəlmir. Xəstələrin çoxunda periferik limfa düyünləri böyüyür, ağrılı olur.

Ağır formalarda vezikulyoz səpgilərlə yanaşı, hemorrogik səpgilər də müşahidə edilir. Səpgilərə boyunda, sinədə, əlin və ayağın altında, bəzən isə cinsiyyət üzvlərində rast gəlinir.

Uşaqlar xəstəliyi xüsusilə ağır keçirir. Uşaqlarda yüksək hərarətlə yanaşı, qastroenterit (qanlı-selikli nəcis), qaraciyər və dalağın böyüməsi, ağızda xoraların çox ağrılı olması müşahidə edilir. Bəzən yaşlı şəxslərdə və uşaqlarda ikincili infeksiyanın qoşulması nəticəsində sepsis, miokardit və pnevmoniya kimi ağırlaşmalar olur.

Xəstəlikdən sonra insanda tipospesifik immunitet formalaşır. Ölüm halı insanda nadir halda baş verir.

Dabağın diaqnozu klinik-epidemioloji və laborator müayinə üsullarına əsasən qoyulur. Xəstələr 14 gün müddətində hospitalizə edilir. Xəstəliyin etioloji müalicəsi olmadığı üçün, müalicə patogenetik və simptomatik aparılır.

Profilaktikasına heyvanlar arasında baytarlıq-sanitariya tədbirlərinin aparılması və vaksinasiya daxildir. İnsanlar xəstə heyvanla təmasdan çəkinməli, çiy və ya tam bişməmiş heyvan məhsullarından istifadə etməməlidirlər.

**Vüqar CAVADZADƏ,**
Yoluxucu xəstəliklər kafedrasının dosenti

Bizə yazırlar

# Tələbələrin həyatında dərin iz buraxmış müəllim



Tələbəlik həyatı yaşamış hər kəs ona dərs deyən müəllimləri həmişə xatırlayır. Təbii ki, onların arasında xüsusi seçilənlər olur. Uzun illərdən sonra həmin müəllimlərlə görüşmək isə adamda xoş duyğular yaradır, xəyalən keçmişə səyahət edirsən.

Bu mənada, bir vaxtlar Azərbaycan Tibb Universitetində bizə dərs demiş Xarici dillər kafedrasının dosenti, minlərlə tələbənin sevimli müəllimi Zəminə Mustafayeva ilə görüşmək mənim üçün böyük xoşbəxtlik oldu. Birlikdə keçmiş günləri xatırladıq, onun həyatımıza və təhsilimizə necə dərin təsir göstərdiyini bir daha hiss etdim. Zəminə xanım 1977-ci ildən Tibb Universitetində çalışaraq saysız-hesabsız tələbələr yetişdirib. Onun səmimiyyəti, mehribanlığı, hər bir tələbəsini diqqətlə dinləməsi və ehtiyac duyulan anda yanlarında olması onu əvəzolunmaz edir. Alman dili sevgisindən danışarkən, Zəminə xanımın bu dili bizə necə həvəslə və sevgi ilə aşıladığını heç vaxt unutmuram. O, dərslərini hər zaman maraqlı və yaddaqalan edir, yalnız dil biliyini deyil, eyni zamanda həyat təcrübəsini də bizə öyrədirdi. Tələbələrinə hər zaman səmimi münasibət göstərən Zəminə xanım indi də tələbələrinin uğurlarından qürurla danışırdı: "Əkizlərim Rəşad və Elvin hazırda Almaniyada baş həkim müavinləridir. Valeh Qəhrəmanlı Türkiyədə uzmanlığını tamamlayıb və orada çalışır. Gülər adlı tələbəm isə çalışdığı müəssisədə həmkarlarının hörmət və sevgisini qazanıb. Şəhla Mustafayeva - artıq nəvələrimin sağlamlığını ona etibar edirəm. "Səfiyarın qrupu" dediyim bir qrupun bütün tələbələri demək olar ki, Almaniyadadır, bir-birilərinə dəstək olur, birlikdə addımlayırlar". Zəminə xanım təkcə müəllim deyil, həm də hər birimizin uğurlarını, problemlərini paylaşan, bizi həvəsləndirən və yol göstərən idi, nə yaxşı ki, bu gün də belədir. Hər bir tələbəsinin uğurunu öz uğuru kimi görür və onların həyatda irəliləməsi üçün əlindən gələni edir. Tələbələri arasında həm xaricdə, həm də ölkəmizdə çalışan, öz sahəsində uğurlar qazanan çoxlu gənclər var. Mən xüsusilə onun insanlara sevgisini və qayğısını yüksək qiymətləndirirəm. Zəminə xanım hər zaman deyir: "Hər şeyi vaxtında edin - istər şəxsi həyat, istərsə də karyera baxımından. Dil öyrənin, çoxlu ədəbiyyat oxuyun, elmlə məşğul olun".

Xatırlayıram, o, tələbələrinə həm də bir ana kimi yanaşırdı, hər zaman yanımızda və dəstəkçimiz idi. Biz onun yanında özümüzü dəyərli və önəmli hiss edirdik. Əslində, Zəminə xanım sözün həqiqi mənasında bir müəllimdir: bilik verən, yol göstərən, dəstək olan, sevgi və şəfqətini paylaşan. Onunla yolumuz kəsişdiyi üçün çox xoşbəxtik və onun təcrübəsi, sevgisi və dəstəyi həyatımız boyunca bizimlədir. Ona görə də sevimli müəllimim haqqında səmimi fikirlərimi "Təbib" qəzetinin oxucuları ilə bölüşməyi özümə borc bildim. Düşünürəm ki, bu günün tələbələri də gələcəkdə öz müəllimlərini böyük məhəbbətlə xatırlayacaq, təəssüratlarını gənclərə çatdırmaqla nəsillərarası ələqələri itməyə qoymayacaqlar.

**Hörmətlə: Gülər SƏFƏROVA,**
ATU-nun məzunu,
həkim-pediatr

İstedadlı tələbə



**Səid Qənbər Mübariz oğlu 2004-cü il avqustun 10-da Goranboy rayonunun Səfikürd kəndində doğulub. 2021-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil olub. Bu sahəyə marağı uşaqlıqdan olsa da, İkinci Qarabağ müharibəsi dövründə daha da güclənib.**

Universitetdə təhsil aldığı müddətdə Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Həyat" teatr klubunun bir sıra tamaşalarında baş rolda çıxış edib, müxtəlif tədbirlərdə öz şeirlərini səsləndirib.

Ədəbiyyata həvəsi orta məktəb illərindən formalaşıb, fəlsəfi, romantik, təbiət, psixoloji və vətənpərvərlik mövzularında şeirlər qələmə alıb. Yaradıcılığı təhsil aldığı universitetin müəllim heyəti və fakültə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək mükafatlandırılıb. Təhsil və ədəbi yaradıcılığa yanaşı, elmi fəaliyyətlə də aktiv məşğul olan Səid Qənbər müxtəlif konfrans və tədbirlərdə çıxışlarına görə sertifikatlarla təltif olunub.

**Səid QƏNBƏR**

**VƏTƏN ÇAĞIRIR**

Daha qaralanmır bircə şeir də,
Misralar od olub başıma yağır.
Yenə haray salıb qorxulu səslə,
Cəbhədə mərmilər fəğan qoparır.

Bəlkə yalqız olub, bəlkə köməksiz,
Yaralı bir əsgər dost soraqlayır.
Bəlkə yetim qalıb, bəlkə kimsəsiz,
Hansısa bir silah yiyəsiz qalır.

Gedirəm ölkəmin Günəşi üçün,
Yağı səmasında bulud olmağa.
Haqq ilə yetişən nəsillər üçün,
Qələbə əzmində körpü qurmağa.

Gedirəm sevgilim, gedirəm daha,
Hardasa bir "ana oğlun axtarır".
Geri qayıdacam, mənsiz ağlama,
Gərək gecikməyim, Vətən çağırır.

**SEVDA DƏNİZİ**

Sevda dənizinin qərib yolçusu,
Limanlar gəmidən uzaqdı, uzaq.
Zərif tellərinin nədir qorxusu? -
Qoy bir az islansın, dəniz qoxacaq.

Təslim et özünü şux dalğalara,
"Ay üz"ə sevgidən nurlar ələnsin.
Birdən bu dalğalar sənə çatmasa,
Küləyə qoşulub şeirlər desin.

Bir az da, bir az da, bir az da islan,
Qorxma bu dənizin şıltaqlığından.
Gecənin bir vaxtı durub yuxudan,
Ağlama dənizin burulğanından.

**QÜTB ULDUZU**

Əlvida deyirəm bu al səhərə,
Əlvida deyirəm sönən çırağa.
Alıb kürəyimə sənsiz illəri,
Gedirəm sən olan qərib yuxuya.

Yuxum tellərindən qaradır, gülüm,
Yas günü asılan qara şal kimi.
Deyirlər yuxular ikinci ölüm,
Qorxuram yuxu da ayıra bizi.

Qonağı olduğun kəm yuxularda
Bu dəfə çiçəklər boynunu burub.
Sənin olmadığın bu qaranlıqda
Günəş üz çevirib, vaxtı dondurub.

Nəfəsim daralır, rəngim ağarır,
Qaranlıq yuxumun harasındasan?
Yenə göy üzündən işıq boylanır,
Sən mənim ən uzaq qütb ulduzumsan.

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında ingilis dilində "The İmpact of Climate Change on Human Health" adlı yeni metodik vəsait çap edilib.**

## İqlim dəyişikliyinin sağlamlığa təsiri haqda metodik vəsait

Nəşrdə müasir dövrün ən qlobal problemlərindən biri sayılan iqlim dəyişikliyinin insan sağlamlığına birbaşa və dolayı təsirləri, ictimai sağlamlıqda ekoloji sağlamlıq problemləri, ətraf mühit sağlamlığına müdaxilə vasitəsilə sağlamlığın təşviqi məsələləri ətraflı şəkildə təqdim olunur. Vəsaitdə, həmçinin müasir ekoloji tədqiqatlar və COP29-la bağlı məlumatlar da yer alır.

İqlim dəyişikliyinin insan sağlamlığına təsiri mövzusu 2024-2025-ci tədris ilindən etibarən kafedrada bütün fakültələr üzrə tədris olunan "İctimai sağlamlıq" fənninin 2 saatlıq mühazirə və 4 saatlıq seminar blokunu əhatə edir.

Tədris vəsaitinin müəllifləri tibb elmləri doktoru, dosent Yaqut Hacıyeva və tibb elmləri namizədi, dosent Nərminə Göyüşovadır. Yeni nəşr həm tələbələr, həm də ekoloji sağlamlıq sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulub.




# Mülki müdafiə qüvvələrinin toplanış məşqi olub



**Tədris Cərrahiyyə Klinikasında mülki müdafiə qüvvələri ilə xəbərdarlıq və toplanış məşqi olub.**

TCK-nın Mülki Müdafiə Qərargahının rəisi Azər Cəfərov diqqətə çatdırıb ki, "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusuna həsr olunan tədbir fövqəladə hallar zamanı effektiv cavab reaksiyası və yanğınlar haqqında məlumatlılığı artırmaq məqsədi daşıyır.

Bildirilib ki, məşqin əsas məqsədi həm də mülki müdafiə planının reallığını və xəbərdarlıq sisteminin vəziyyətini yoxlamaq, eyni zamanda Tədris Cərrahiyyə Klinikasının Mülki Müdafiə Qərargahının və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin iş vaxtı xəbərdarlıq sxeminə müvafiq olaraq toplanmasını təmin etməkdir.

Toplantıda məşq iştirakçılarına yanğınsöndürən balondan istifadə qaydaları izah edilib və xəbərdarlıq sisteminə dair zəruri məlumatlar verilib. Həmçinin fövqəladə hadisələr zamanı davranış qaydaları haqda söhbətlər aparılıb və əyani vəsaitlər nümayiş olunub.

Bundan sonra klinikanın inzibati ərazisində yanğınsöndürən dəstə üzvləri tərəfindən şərti yanğınla bağlı məşq keçirilib və yanğın praktiki olaraq söndürülüb. Xəbərdarlıq və toplanış məşqində klinikanın rəhbərliyi və işçi heyəti iştirak edib.

# "Stressi idarəetmə sirləri" mövzusunda praktik tövsiyələr verilib

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) dəstəyi və Şəxsi İnkişaf və Psixoloji Təlimlər Klubunun təşkilatçılığı ilə "Nəfəs al, düşün, hərəkət et – stressi idarəetmə sirləri" adlı seminar baş tutub.**



Tədbiri giriş sözü ilə açan THİK sədrinin müavini Özləm Tahirli seminarın mövzusunun aktuallığını vurğulayaraq, tələbələrin psixoloji rifahının və emosional sabitliyinin qorunmasının əhəmiyyətindən danışıb.

Daha sonra Psixiatriya kafedrasının əməkdaşı, uşaq-yeniyetmə psixoloqu Pərvin Müslümzadə iştirakçılara stressin effektiv idarə olunması, emosional balansın saxlanılması və psixoloji dayanıqlığın artırılması ilə bağlı praktik tövsiyələr verib. İnteraktiv müzakirələr və praktik tapşırıqlarla müşayiət olunan seminar tələbələrin böyük marağına səbəb olub.

**Allah rəhmət eləsin!**

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın assistenti Vüsalə xanıma qayınatası **Qələmmirzə müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Gülnarə Qasımovaya qayınanası **Validə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Nadir Zeynalova qayınanası **Ofelya xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0020
Sayı 800